# Allahın Şahidi

## Stefanın cəsarəti



# Allahın Şahidi

## Stefanın cəsarəti

Originally published in English under the title:
*God's Witness: The Courage of Stephen*
by Voice of the Martyrs

Text Copyright 2009 The Voice of the Martyrs, Inc.
Illustrations Copyright 2009 The Voice of the Martyrs, Inc

© 2021 for the Azeri Edition.  All rights reserved.
Contact us at: fieldresources@vm1.global

Kitab Rəbbin övladlarını dua etməkdə ruhlandırmaq məqsədilə çap olunub. Bu kitab PULSUZ paylanmaq üçün nəzərdə tutulub. Kitabın satıldığı hallarda qeyd olunan ünvana müraciət etməniz xahiş olunur.

"Şəhidlərin Səsi" qeyri-kommersiya məsihçi təşkilatı olub təqib olunanlara, o cümlədən kommunist və islam ölkərində yaşayan məsihçilərə xidmət göstərir. "Şəhidlərin Səsi" təşkilatı 1967-ci ildə Rumınıyada imanlarına görə həbs olunmuş və təqiblərə məruz qalmış Riçard və Sabina Vurmbrand tərəfindən yaradılıb. Hal-hazırda təşkilatın ofisləri dünyanın müxtəlif yerlərində fəaliyyət göstərir. Vurmbrandların əsas məqsədi dünyada imanlarına görə təqib olunub əzab çəkən məsihçiləri ruhlandırmaqdır.

Əgər siz hər ay "Şəhidlərin Səsi" təşkilatından məktub və digər materiallar əldə etmək istəyirsinizsə, əlaqə üçün aşağıdakı ünvana yaza bilərsiniz:

Web: www.vom-ru.org
Email: info@vom-ru.org





Bu kitab Müjdəni cəsarətlə bölüşən
bacı-qardaşlarımıza həsr olunur.

# Ön söz

Göylərə qalxmazdan əvvəl İsa şagirdlərinə belə dedi: "...Amma Müqəddəs Ruh üzərinizə enəndə siz qüdrət alacaqsınız və Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız" (Həvarilərin İşləri 1:8). İsanın davamçısı üçün şəhid olmaq və ya yunan dilindən tərcümədə "şahid" olmaq, görünür ki, həmin dövrdə əsas şərtlərdən biri idi.

İsa göylərə qalxdıqdan sonra yəhudi rəhbərləri həvariləri ələ salır və İsanın Allahın Oğlu olması, Müqəddəs Ruhdan doğulması və ölülər arasından dirilməsi barədə "küfr" təlimlərinin kökünü kəsmək istəyirdilər. Bir sözlə, yəhudi din müəllimləri sonralar məsihçilik kimi tanınan bu yeni imanın Yerusəlimdən kənara yayılmasını istəmirdilər. Ona görə də yəhudi rəhbərlər ilk imanlı cəmiyyətini dağıtmağı planlaşdırdılar. (Bir neçə onillikdən sonra romalılar ilk imanlı cəmiyyətinin əsas təqibçilərinə çevriləcəkdilər.)

Yəhudi başçıları Məsihin Müjdəsinin yayılmasını dayandırmaq və onun nüfuzunu azaltmaq məqsədilə həvarilərə qarşı sui-qəsd planları hazırladılar. Onlar həvariləri həbs edib qamçılayır, zindana salırdılar və İsa haqqında danışmamağı əmr edirdilər. Bütün bunlara baxmayaraq həvarilər İsanın Məsih olması haqqında Müjdəni yaymaqdan əl çəkmədilər. Sadukeylər bütün həvariləri ölümlə hədələsələr də, Qamliel adlı bir farisey bu sui-qəsdlərin qarşısını almağa müvəffəq olmuşdu. O, bu kimi "küfr" təlimlərlə əvvəllər də qarşılaşmışdı və sadukeyləri əmin etdi ki, belə yad təlim öz-özünə itib gedəcək. Qamliel Ali Şuranın üzvlərinə belə dedi: "Ey israillilər, indiki məsələ barəsində sizə onu deyirəm ki, bu adamlardan əl çəkin və azad buraxın. Əgər bu hərəkat, bu iş insandandırsa, məhv olub gedəcək. Yox, əgər Allahdandırsa, bu adamların işini məhv edə bilməzsiniz. Allaha qarşı çıxanların vəziyyətinə belə, düşə bilərsiniz". Qamlielin sözləri peyğəmbərlik sözləri idi.

İmanlı cəmiyyətə qarşı kəskin təqiblər olduğu vaxtda məsihçilik ilk şəhidini verdi. Amma o, həvari deyildi. Onun adı Stefan idi.

Stefanın həyatından daha çox ölümü barədə məlumatımız var. Bəziləri güman edir ki, ilk imanlı cəmiyyətinin şagirdləri kimi Stefan da yəhudi idi. Digərləri isə onun gözəl natiq olduğuna görə yunandilli yəhudi olduğunu iddia edirlər və bu səbəbdən də Stefan asanlıqla yunanları imana gətirə bilirdi. Məsihə yeni iman etmiş yunandilli yəhudilər öz icmalarında olan dul qadınların

kifayət qədər ərzaqlarının olmaması barədə həvarilərə şikayətləndilər.

Buna görə də həvarilər ehtiyacı olanlara yardım etmək məqsədilə Stefan və digər altı nəfəri bu xidmət üçün ayırmışdılar. Həvarilər Stefanı "Müqəddəs Ruh və imanla dolu insan" adlandırırdılar.

Müjdə uğrunda xüsusi natiqlik istedadı olan Stefan müzakirələr edirdi və ilk imanlı cəmiyyətində iman uğrunda mübarizə aparanlardan biri idi. Kəlamda yazılıb ki, o, xalq arasında böyük xariqə və əlamətlər göstərirdi.

Stefanın çıxışlarından qəzəblənən, Kirena və İsgəndəriyyədən olan libertinlər və ya fridmenlər adlanan yəhudi dəstəsi Stefana qarşı çıxıb onunla mübahisəyə başladılar. Kəlamda deyilir ki, "Onlar Stefanın hikməti və Müqəddəs Ruhun qarşısında dayana bilmədilər". Ona qalib gələ bilmədiklərini görəndə yəhudilər Stefan haqqında şayiələr yaymağa başladılar. Onlar Stefanın Musaya və Allaha qarşı danışdığını yəhudi rəhbərlərinə çatdırmaq üçün bir neçə yalançı şahid tapdılar. Bütün bunlar Stefanın Ali Şuraya çıxarılmasından bir müddət əvvəl baş vermişdi.

Hekayənin qalan hissəsi təfərrüatı ilə bu kitabda əks olunub. Stefanın yalnız necə şəhid olması deyil, Rəbbin onun vasitəsilə imanlı cəmiyyətinə böyük xeyir-dua verməsi də bizdə böyük maraq doğurur.

Stefanın həyatı və Məsih uğrunda ölümü indiki dövrdə təqib olunan kilsənin əhəmiyyətini və ruhlandırıcı irsini təcəssüm edir. Məhz Stefanın şəhidliyində biz təqiblər və İsanın davamçılarının böyük cəsarəti ilə məsihçiliyin yayılmasının başlanğıcını görürük.

Kəlamda deyilir ki, Stefanın öldürüldüyü gün "Yerusəlimdə olan imanlı cəmiyyətinə qarşı güclü təqiblər başladı". İmanlılar pərən-pərən düşüb Yəhudeya və Samariyanın hər tərəfinə səpələndilər və Müjdəni getdikləri hər yerdə yaydılar.

Stefanın ölümündən sonra ilk imanlı cəmiyyəti sürətlə artmağa başladı. Stefanın həbs olunması və öldürülməsinin şahidi olan yəhudilərdən biri, sonradan Paul adlanan Şaul dünyada ən məhsuldar müjdəçi oldu.

Müjdənin yayılmasına görə bəlkə də biz heç vaxt ölümlə üzləşməyəcəyik. Buna baxmayaraq mən dua edirəm ki, sizin uşaqlarınız Stefanın imanının cəsarət və əzmindən ruhlansınlar. Yalnız belə sarsılmaz iman çoxlu sayda insanı Rəbbimiz və Xilaskarımız İsa Məsihə gətirə bilər.



*İsa şagirdlərindən ayrılaraq göylərə qalxdı, amma onları köməksiz və tənha qoymadı.*

Vəd etdiyi kimi Müqəddəs Ruhu onlara göndərdi. Rəbb bilirdi ki, Onun işini davam etdirmək üçün Müqəddəs Ruh şagirdlərinə güc və cəsarət verəcək.

Bu davamçılardan biri də Stefan idi.







*Müqəddəs Ruhun köməyi ilə Stefan cəsarətlə İsa haqqında danışır və möcüzələr yaradırdı.*

O, insanları məharətlə İsanın iman yoluna gətirirdi və buna görə də yəhudi rəhbərləri onu dayandırmağa çalışırdılar.

Amma Stefana vacib iş tapşırılmışdı...



*Bir kişi İsa ilə birgə olan on iki həvarinin yanına gəlib dedi: “Ehtiyac içində olan dul qadınların kifayət qədər ərzaqları yoxdur”.*

Həvarilər ona qulaq asdıqdan sonra razılığa gəldilər. Onlar vaxtlarının çox hissəsini duaya və İsa haqında təlimlərə həsr etdiklərinə görə digər işlər üçün vaxtları çatmırdı. Beləliklə, onlar bu iş üçün iman və Müqəddəs Ruhla dolu yeddi nəfəri təyin etdilər. Onlardan biri Stefan idi.







*Həvarilər yəhudilərin səcdə etmək üçün yığışdıqları məbəddə Müjdəni bölüşərkən Stefan və digər altı nəfər isə dul qadınlara yardım edirdi.*

Daha çox insan Məsihə iman edir və cəmiyyət getdikcə böyüyürdü.



*Stefan həm də insanlara İsa haqqında danışmağı sevirdi.*

Həvarilər kimi o da İsanın adı ilə möcüzələr törədir və xəstələrə şəfa verirdi.

Camaat Stefanın sözlərindən və əməllərindən heyrətə gəlirdi və İsanın ardınca getmək üçün öz dinlərindən üz döndərirdilər.







*Stefanın öyrətdikləri yəhudi dini rəhbərlərin xoşuna gəlmirdi. Onlar Stefan və digər həvarilərin İsa barədə danışdıqlarına görə çox qəzəblənirdilər.*

Hətta bir dəfə yəhudi dini rəhbərlər həvariləri zindana salıb döydülər. Amma bu, Rəbbin işini görməkdə mətanətli məsihçiləri və Stefanı dayandıra bilmədi. Yerusəlimdə yaşayan xalq İsa haqqında eşitməli idi!

“Buna görə də mən onlara öyrətməkdə davam edəcəyəm!” — deyə Stefan düşündü.

*Bir gün Stefan bazar meydanında camaatın qarşısında dayanmışdı. İnsanlar onun nə deyəcəyini eşitmək istəyirdilər. Amma Stefan danışmağa başlamazdan öncə bir neçə dini rəhbər camaatın arasından keçərək ona doğru irəlilədilər.*

"Niyə Allah haqqında camaata məbəd və sinaqoqlarda deyil, küçədə danışırsan?" — deyə onlardan biri soruşdu.

"Biz Allah haqqında təkcə məbəddə deyil, hər yerdə danışa bilərik" — deyə Stefan cavab verdi.









*Dini rəhbərlər Stefanla mübahisə etməyə çalışdılar, lakin onların hər sualına yetərli cavab verdiyi üçün ona üstün gələ bilmədilər.*

“Biz onu mütləq dayandırmalıyıq, yoxsa bizim bütün adamlarımız onun ardınca gedəcək” – deyə kişilərdən biri pıçıldadı.

“Bəs bunu necə edə bilərik? Bizlərdən heç kim hikmətdə ona üstün gələ bilmədi”.

İzdihama yeni qoşulanlardan biri dedi: “Bu işi mənə həvalə edin”.

O, cübbəsini hamarlayaraq Stefana tərəf baxdı və sonra kənara çəkilərək öz məkrli planını həyata keçirməyi düşündü.



*Tezliklə həmin kişi öz dəstəsi ilə birgə geri döndü. “Onu həbs edin! O, Allaha, Qanuna və Məbədə qarşı küfr etməkdən başqa heç bir işlə məşğul deyil!” — deyə qışqırdı.*

Bir neçə nəfər Stefanı tutmaq istəsə də, o qorxmadı.

“Biz çalışacağıq ki, rəhbərlərimiz sənin təliminə son qoysun!”







*Artan izdiham toz dumanında Stefanı yəhudi dini rəhbərlərin yanına dartıb apardı. Onlar Stefana baxaraq kinayə ilə gülürdülər.*

“Ona bu da azdır, — deyə pıçıldayırdılar, — Allah haqqında o necə belə sözlər danışa bilər?”

Stefanın həbs olunması barədə xəbər tezliklə bütün şəhərə yayıldı.



*İzdiham Stefanı məhkəmə zalına gətirib çıxardı. "Bu şəxs cəzalandırılmalıdır!" — deyə kişilərdən biri qışqırdı.*

Yalançı şahidlər ayağa qalxıb Stefan haqqında yalan danışdılar.

"O iddia edir ki, İsa Musanın bizə verdiyi qanunu ləğv edib!"

"O deyirdi ki, İsa məbədi dağıdacaq!"

"O, Allaha qarşı hörmətsizlik edir!"

Bir-birinin ardınca yalan ittihamlar söyləndikcə məhkəmə zalında oturanlar Stefanın üzündə nə qorxu, nə də təqsir hissi görmədilər. Onun çöhrəsi bir mələk siması kimi parlayırdı.







*Baş kahin Stefanın üzünü daha yaxşı görmək üçün ayağa qalxdı.*

“Deyilənlər doğrudur? Bu sözləri sən demisən?” — deyə o, ciddi şəkildə soruşdu.

“Allah Musaya qanun verdi və onu İsrail xalqının başçısı təyin etdi” — Stefan insanların üzünə cəsarətlə baxaraq dedi. Daha sonra onlara Rəbbin məbədini sevən Davud və Süleyman haqqında danışdı.

İzdiham Stefana qulaq asmaq üçün sıxlaşdı. Onun heç bir sözündə Allaha, qanuna və məbədə qarşı hörmətsizlik yox idi. Əvvəlcə dini rəhbərlər bunların sadəcə yanlış ittihamlar olduğunu düşündülər. Lakin Stefanın son sözləri onların fikrini dəyişdirdi.

*Stefan dərindən nəfəs alıb ucadan dedi: “İsa Allahın seçilmişi idi, lakin ata-babalarınız Onun gəlişi barədə əvvəlcədən xəbər verənləri təqib etdilər, sizsə Onu qətlə yetirdiniz!”*

Stefan anlayırdı ki, bu sözlər məhkəmə zalında oturanları qəzəbləndirə bilər. Buna baxmayaraq o, istəyirdi ki, orada əyləşənlər də İsa haqqındakı həqiqəti eşitsin və Onun vəd etdiyi əbədi həyatı əldə etsinlər.

“Kifayətdir!” — deyə baş kahin izdihamın üstünə ucadan qışqırdı.

Camaat qəzəbdən dişlərini qıcayırdı, Stefan isə onlara baxmırdı. O, gözlərini göylərə dikmişdi və gördüklərinə inana bilmirdi.

“Baxın mən göylərin yarıldığını və Bəşər Oğlunun Allahın sağında dayandığını görürəm” — Stefan heyrətlə dedi.









*İzdiham Stefanı məhkəmə zalından çıxarıb şəhərdən kənara apardı.*

Onlar Stefana daş atmağa başladılar. Camaat artıq qərara gəlmişdi ki, Stefan da İsa kimi öldürülməlidir.

Dini rəhbərlər Stefanı daşlayarkən Şaul adlı yəhudi bir gənc kənarda durub onlara tamaşa edirdi.



*Atılan daşlar Stefana dəyəndə ayağı büdrədi.*

“Onu öldürün! Onu birdəfəlik susdurun!” — deyə camaat qışqırırdı.

Stefan isə onlara qarşı qəzəbli deyildi və qorxmurdu, əksinə, o dua edirdi.

“İsa, ruhumu qəbul et!” — deyə o, Allaha yalvardı. Stefan dizüstə düşdü və izdihama üzünü tutaraq ucadan dedi: “Ya Rəbb, bunu onlara günah sayma!” Stefan ümid edirdi ki, onu təqib edənlər bu sözləri eşidəcəklər. Nəhayət, axırıncı atılan daş Stefana dəydi və o, son nəfəsini verərək gözlərini əbədi yumdu.







*Stefanın hərəkətsiz olduğunu görən azğınlaşmış camaat əllərindəki daşları yerə atdı.*

“İndi o, əbədilik susdu!” — deyə onlar sevinərək nida etdilər.

Hər kəs bir-birinin ardınca cübbəsini yerdən götürərək geriyə — şəhərə qayıtdı.

Tezliklə dini rəhbərlər səhv hərəkət etdiklərini başa düşəcəkdilər. Bəlkə də onlar Stefanı susdurmağı bacardılar, lakin onun ölümü Müjdənin Yerusəlimdən kənarlara yayılmasına səbəb oldu.



*Stefanın ölümünə şahid olan Şaul bu hadisədən sonra imanlı cəmiyyətini təqib etməyə başladı.*

Qəzəbli Şaul və onun adamları Yerusəlim boyunca məsihçiləri axtarmağa başladılar. Onlar evlərə girib məsihçiləri həbs edirdilər. Bir çox imanlılar şəhərdən qaçır və Müjdəni başqa yerlərdə bölüşürdülər. Beləliklə, İsa Məsihin son sözləri yerinə yetdi: "...siz... Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, hətta dünyanın hər yerində mənim şahidlərim olacaqsınız".







*Məsihçilərin təqib olunaraq Müjdəni Yerusəlimdən kənarlara yaydığı müddətdə qeyri-adi bir hadisə baş verdi.*

Şaul məsihçiləri həbs etmək üçün başqa bir şəhərə gedərkən İsa gözqamaşdırıcı işıqda ona göründü. Daha sonra o Paul adlandırılaraq İsanın ən məhsuldar müjdəçilərindən biri oldu. Beləcə, Stefanın duasını Rəbb cavabsız qoymadı.

*İndiki dövrdə bəzi ölkələrdə məsihçilər İsa haqqında Müjdəni digərləri ilə bölüşdüklərinə görə həbs olunur, hətta bəzən öldürülürlər.*

Əhalisinin əksəriyyəti müsəlman olan Pakistanda məktəbdə Müqəddəs Kitabı müdafiə edən balaca, amma cəsur bir oğlan yaşayırdı.

Müəllimlərdən biri ona Müqəddəs Kitabın insanlar tərəfindən dəyişdirildiyini dedi. Oğlan isə müəllimi və sinif yoldaşlarının qarşısında dayanaraq belə bəyan etdi: “Müqəddəs Kitab dəyişməyib, amma onu oxuyanlar dəyişir!”

Qatı dindar şagirdlər və müəllim onu cəzalandıraraq üstünə qışqırdılar, lakin oğlan Stefan kimi imanında dəyanətlə durdu.




مقدس بائبل





## *İsa haqqında başqalarına danışmaq heç də asan deyil.*

Bizi imanımıza görə nə həbs edir, nə də döyürlər. Amma çox vaxt camaat Allah haqqında eşitməyi xoşlamır və hətta bizi bəzən susdurmağa da çalışırlar. Əgər belə hadisə baş verərsə, yadda saxlayın ki, siz onların İsa haqqında eşitməsi üçün yeganə insansınız.

Müqəddəs Ruhun köməyi ilə siz Stefan kimi mətanətli olub insanların ürəklərinin dəyişilməsi üçün İsaya dua edə bilərsiniz.

# Düşünmək üçün

*“Lakin Məsihi Rəbb kimi ürəyinizdə müqəddəs tutun. Daxilinizdə olan ümid barəsində sizdən hesabat istəyən hər kəsə cavab vermək üçün hazır olun”.*

*1Peter 3:15*

Stefan İsaya ümidi barədə necə hesabat verdi (və ya danışdı)?

Həqiqəti müdafiə edərkən Stefanın başına nə gəldi?

Allah Stefana necə kömək etdi?

İsaya olan imanımızı müdafiə edərkən “həlimlik və hörmət” nə məna daşıyır? Stefan bu xüsusiyyətləri necə nümayiş etdirdi?

Biz başqalarına İsa haqqında “həlimlik və hörmət”lə danışmaq üçün necə hazır olmalıyıq?

# *Dua*

Əziz İsa,

Stefana Səni müdafiə edərkən verdiyin sülh və cəsarətə görə Sənə minnətdaram. Kimsə məndən Sənin haqqında soruşarkən kömək et ki, həmin cəsarətlə hamıya verdiyin ümid barəsində danışa bilim. Dünyada Müjdə uğrunda əziyyət çəkən və ya həbs olunan digər bacı və qardaşlarımız üçün dua edirəm. Ya Rəbb, bu imanlıların həlim və eyni zamanda cəsarətli olmaları üçün onlara kömək et.

Sənin adınla,

***Amin.***

Atılan daşlar Stefana dəyəndə ayağı büdrədi. “Onu öldürün! Onu birdəfəlik susdurun!” — deyə camaat qışqırırdı.

Stefan isə onlara qarşı qəzəbli deyildi və qorxmurdu, əksinə, o dua edirdi.

“İsa, ruhumu qəbul et!” — deyə o, Allaha yalvardı. Stefan dizüstə düşdü və izdihama üzünü tutaraq ucadan dedi: “Ya Rəbb, bunu onlara günah sayma!” Stefan ümid edirdi ki, onu təqib edənlər bu sözləri eşidəcəklər. Nəhayət, axırıncı atılan daş Stefana dəydi və o, son nəfəsini verərək gözlərini əbədi yumdu.

İsa göylərə qalxdıqdan sonra Müjdə uğrunda həyatını itirən ilk şagird Stefan idi. O, iman və Müqəddəs Ruhla dolu bir həyat yaşayaraq möcüzələr törədirdi və başqalarına İsa haqqında cəsarətlə danışırdı. Stefan insanları çox məharətlə İsa ilə tanış edə bilirdi, buna görə də yəhudi dini rəhbərlər onu susdurmaq istədilər. Amma onlar tezliklə bunun səhv addım olduğunu anladılar, çünki Stefanın öz imanını cəsarətlə bölüşməsi Müjdənin Yerusəlimdən kənarlara yayılmasına səbəb oldu.

*“Allahın Şahidi: Stefanın cəsarəti”* kitabı uşaqları və böyükləri İsa Məsih barədə cəsarətlə danışmağa ruhlandırmaq üçün yazılıb. Rəbb uğrunda müqavimətlə üzləşərkən bu kitab onlara Müqəddəs Ruhun gücünü xatırladacaq.